# 2015 Azərbaycan mədəniyyəti üçün səmərəli keçdi

## İl ərzində çoxsaylı mühüm tədbirlər, konsertlər, mədəniyyət və incəsənət xadimlərinin yubileyləri təşkil edilib, beynəlxalq festivallar keçirilib

**2015. Bu ilə əlvida demək üçün son günləri yaşayırıq. Hətta 2015-i yola salmaq üçün saatlar qalıb desək yaqin ki, yanılmarıq. Geridə qoyduğumuz bu il ərzində həm Azərbaycanda, həm də beynəlxalq arenalarda çoxlarının səbirsizliklə gözlədiyi konsertlər, tədbirlər, sərgilər, mükafatlandırma mərasimləri keçirildi. 2015-ci il müxtəlif mədəniyyət hadisələri ilə yaddaşımıza həkk olundu.**

2015-ci ilin ilk aylarına baxanda görürük ki, həmin dövr mədəniyyət hadisələri ilə zəngin olub. Bu müddət ərzində ölkədə bir sıra mühüm tədbirlər, mədəniyyət və incəsənət xadimlərinin yubileyləri təşkil edilib və beynəlxalq festivallar keçirilib. Qısa da olsa, gəlin, onlara bir nəzər salaq.

### İLİ XARİCDƏ KONSERT PROQRAMI İLƏ AÇDIQ

İlin əvvəlində xalq artisti Alim Qasımovun Tehranın "Vəhdət" sarayındakı geniş konsert proqramı ilə çıxışı sevindirici mədəniyyət xəbəri kimi yaddaşımızda qaldı. Konsertdə Alim Qasımov qızı, əməkdar artist Fərqanə Qasımova ilə eyni səhnəni bölüşdü. Muğam ifaçılarını Tehran Simfonik Orkestri müşayiət edirdi. Dünya şöhrətli ifaçının səsləndirdiyi xalq və bəstəkar mahnıları böyük alqışlarla qarşılandı.

Sevindirici mədəniyyət xəbərlərindən biri də "İçərişəhər" Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən, dünyada ilk özəl Miniatür Kitab Muzeyinin miniatür kitablar ekspozisiyasının dünyada ən böyük kolleksiya kimi Ginnesin Rekordlar Kitabına daxil edilməsi oldu. Qeyd edək ki, muzeydəki 38 şüşə vitrində dünyanın 66 ölkəsində nəşr edilmiş 5600-dən çox miniatür kitab sərgiləndi.

Burada ən nadir eksponatlar yer aldı. Onların arasında Yaponiyanın Tokio şəhərindəki "Toppan" nəşriyyatında buraxılmış dörd mikrokitab (onlardan biri 0,75x0,75mm formatında, üçü 2x2 mm formatındadır), habelə Almaniyada hazırlanmış dörd mikrokitabı (bu nəşrlərdən biri (Leypsiq) 2,0x2,9 mm formatında, qalan üçü (Münhen) 3,5x3,5mm formatındadır) göstərmək olar.

### İTKİLƏRİMİZ DƏ AZ OLMADI

Bununla belə, ilin əvvəlində mədəniyyətimizdə ağır itkilər də oldu. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Vaqif Səmədoğlu (Vaqif Səməd oğlu Vəkilov) 2015-ci il yanvarın 28-də ömrünün 76-cı ilində vəfat etdi. 2015-ci il ərzində itirdiyimiz dəyərli sənətkarlarımızdan xalq artistləri İlham Əsgərov, Ramiz Mirişlini, Azər Rzayevi, Habil Əliyevi, Nuriyyə Əhmədovanı yada sala bilərik. Bundan əlavə, Azərbaycanın əməkdar artistləri Tanilə Əhmərova, Gülnar Salmanova da məhz bu ildə həyata gözlərini əbədi yumdular.

Bu cür itkilərə baxmayaraq, mədəniyyətimizin xüsusən də kino sahəsində bir sıra uğurları oldu. O cümlədən bir neçə bədii film, kinokomediyalar tamaşaçılara təqdim olundu, "Nabat", "Sonuncu", "Çölçü" filmləri bir sıra beynəlxalq fesitivallarda iştirak edərək yüksək mükafatlar qazandı. Rejissor Fehruz Şamıyevin quruluş verdiyi "Yol" filmi İranda keçirilən IX "Ruyesh" Beynəlxalq qısametrajlı film festivalının baş mükafatına layiq görüldü. Ən sevindirici məqam isə uzun illərdən sonra ilk uşaq filmi olan "Dərs"in ekranlara çıxması oldu.






### BEYNƏLXALQ FESTİVALLARA İMZA ATDIQ

2015-ci il martın 11-dən 18-dək Bakıda möhtəşəm "Muğam aləmi" IV Beynəlxalq Muğam Festivalı keçirildi. Festival çərçivəsində bir sıra maraqlı tədbirlər, o cümlədən dünya şöhrətli Vaqif Mustafazadənin 75 illik yubileyi də təşkil edildi. Festivalda Türkiyə, İran, İraq, Özbəkistan, Tacikistan, ABŞ, Fransa, İngiltərə, Livan, İspaniya, Almaniya, İordaniya, Rusiya, Çin, Hindistan, Tunis, Belçika, Sloveniya və Niderlanddan gəlmiş dünya şöhrətli musiqiçilər və musiqi qrupları maraqlı çıxışlar etdi.

Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən təşkil olunan festival çərçivəsində həm Bakıda, həm də ölkəmizin bir sıra bölgələrində Azərbaycanın və xarici musiqiçilərin iştirakı ilə konsertlər, habelə beynəlxalq elmi simpozium keçirildi.

Konsertlərdə xarici musiqiçilərlə yanaşı, Azərbaycanın görkəmli muğam ustaları Arif Babayev, Mənsum İbrahimov, Zabit Nəbizadə, Nəzakət Teymurova, Gülyaz Məmmədova, Aqil Məlikov, Elnarə Abdullayeva, Təyyar Bayramov, Səbuhi İbayev və istedadlı gənc ifaçılar - Arzu Əliyeva, Babək Niftəliyev, İlkin Əhmədov, Güllü Muradova, Mirələm Mirələmov və başqaları çıxış etdilər.

Novruz bayramı ilə əlaqədar olaraq "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə mart ayının 20-dən 23-dək təntənəli II Beynəlxalq Novruz Festivalı keçirildi. Festivalda Azərbaycanla yanaşı bu bayramı qeyd edən yeddi ölkənin - Türkiyə, Rusiya, İran, Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstanın nümayəndələri də iştirak etdilər. Festival günlərində Qoşa qala qapısı meydanında "Meydan bazarı" təşkil olundu. Yerli və xarici ölkə nümayəndələrinin iştirak etdiyi "Meydan bazarı"nda hər bir ölkənin mədəniyyətini əks etdirən videoçarxlar, milli-tətbiqi sənət məhsulları, suvenirlər, açıqcalar, broşürlər, milli mətbəx nümunələri sərgiləndi.

Bu il beynəlxalq arenada səbirsizliklə gözlənilən "Eurovision 2015" mahnı müsabiqəsində də iştirak etdik. Müsabiqənin qalibi 365 xalla İsveç təmsilçisi Mons Selmerlev oldu. Yarışmanın finalı mayın 23-də Avstriyanın Vyana şəhərində "Wiener Stadthalle" arenasında keçirildi. 49 xal toplayan Azərbaycan təmsilçisi Elnur Hüseynov müsabiqədə 12-ci yeri tutdu. Final mərhələsində 27 ölkə təmsilçisi öz bacarığını nümayiş etdirdi.

### UĞURLARIMIZDAN BİR NEÇƏSİ

2015-ci ildə Azərbaycan dünya idman tarixində bir ilkə imza atdı. Belə ki, 12-28 iyun tarixlərində paytaxt Bakımız Avropanı qonaq etdi. Paytaxtımızda Bakı-2015 ilk Avropa Oyunları keçirildi. Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bu mərasimlə Avropa Oyunlarının ilk parlaq səhifəsini yazdı. Oyunların açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, ölkənin birinci xanımı, Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, müxtəlif dövlətlərin prezidentləri və baş nazirləri daxil olmaqla, rəsmi nümayəndələr iştirak etdilər.

İlin sonlarına yaxın, noyabrın 30-dan dekabrın 4-dək Namibiyanın paytaxtı Vindhuk şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 10-cu sessiyasında Azərbaycan üçün əhəmiyyətli qərarlar qəbul edildi. Dekabrın 2-də keçirilən müzakirələrdə Azərbaycan tərəfindən təqdim olunan "Lahıc misgərlik sənəti" YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edildi.

Eləcə də, komitə "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin YUNESKO-da akkreditasiya üçün müraciətinə müsbət rəy verdi. Akkreditasiyadan keçən təşkilatlar YUNESKO-da məsləhətçi statusu qazanır və YUNESKO ilə dünyada mədəni irsin qorunması istiqamətində sıx əməkdaşlıq edir. "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin YUNESKO-da akkreditasiyadan keçməsi bizə imkan verəcək ki, işğal altında olan ərazilərimizdə dağıdılmış mədəni irs və abidələrimiz haqqında məlumatları dünya ictimaiyyətinə çatdıraq, Azərbaycanın haqlı mövqeyini YUNESKO tərəfindən təşkil edilən beynəlxalq forumlarda müdafiə edək və Azərbaycan mədəniyyətini dünyada layiqincə təmsil edək.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində bu günə qədər Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, tar ifaçılıq sənəti və digər mədəniyyət nümunələri YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

### GƏLƏN İLƏ PLANLAR

Bu il bir çox sənətkarlarımız müxtəlif fəxri adlara layiq görüldülər. Gənclərə diqqət və qayğı, onların istedadının dəstəklənməsi, bilik və bacarıqlarının inkişaf etdirilməsi Azərbaycan dövlətinin daim diqqət mərkəzində oldu. Belə ki, bu il neçə-neçə gənclərimiz beynəlxalq layihələrdə iştirak etdi, ən ali mükafatlarla vətənimizə geri döndü. Müxtəlif ölkələrin səfirliklərində və mədəniyyət məkanlarında "Azərbaycan mədəniyyəti günləri" keçirildi. Həmyerlilərimiz beynəlxalq muğam, musiqi, kino, teatr festivallarından böyük nailiyyətlərlə geri döndülər. Bir sözlə, bu il Azərbaycan mədəniyyəti üçün çox səmərəli keçdi.

Dekabrın 25-də Mədəniyyət və Turizm Nazirliyi Aparatının işçiləri və nazirliyin strukturuna daxil olan qurumların rəhbər şəxslərinin iştirakı ilə 2015-ci ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirildi. İclasda mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkə prezidentinin müvafiq sərəncamları ilə "Tərəqqi" medalına, "Əməkdar mədəniyyət işçisi" fəxri adına, eləcə də nazirliyin "Fəxri mədəniyyət işçisi" döş nişanına layiq görülən şəxsləri təltif etdi. İclasda məruzə ilə çıxış edən nazir vurğulayıb ki, 2015-ci ildə Prezident İlham Əliyev tərəfindən mədəniyyət və turizm sahələri ilə bağlı 78 sənəd imzalanıb. Nazir məruzəsində 2015-ci ildə keçirilən tədbirlərdən, mədəniyyətin, turizm imkanlarının təbliği istiqamətində görülən işlərdən, həyata keçirilən layihələrdən, əldə olunan nailiyyətlərdən söz açıb. Məruzədə teatr, kinematoqrafiya sahəsi, muzey, kitab nəşri və kitabxana işinin inkişafını səciyyələndirən amillərdən bəhs edilib.

Ə.Qarayev bildirib ki, 2016-cı ildə Mədəniyyət və Turizm Nazirliyi üçün əsas prioritet məsələ regionlarla iş olacaq. Hədəflər bölgələrdə mədəni irsin təbliği və onun inkişafına yönəldiləcək. Kollegiyada müvafiq əmək müqaviləsinin bitməsinə görə Xalça Muzeyinin direktoru Röya Tağıyeva, işində yol verdiyi nöqsanlara və fəaliyyətsizliyə görə Qobustan Milli Tarixi-Bədii Qoruğunu direktoru Məlahət Fərəcova tutduqları vəzifədən azad olunublar. Sonda Mədəniyyət və Turizm Nazirliyinin 2016-cı ilin birinci yarımillik iş planını təsdiq edib.

Beləcə, bu ilin mədəniyyət hadisələrinə qısaca nəzər salmağa çalışdıq. Allah amanında. Qismət olarsa, yeni ildə yeni xəbərlərlə görüşmək ümidi ilə. Yeni iliniz mübarək!

**Xəyalə Rəis**